**Bəxtiyar Vahabzadə – 100**

# Vətəndaşlıq poeziyasının zirvəsi

**Bu il Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, Xalq şairi, dramaturq, ədəbiyyatşünas, pedaqoq və ictimai xadim, SSRİ və Azərbaycan Respublikasının Dövlət mükafatları laureatı, akademik Bəxtiyar Vahabzadənin anadan olmasının 100 ili tamam olur. Prezident İlham Əliyev şairin yubileyinin qeyd edilməsi haqqında 21 fevral 2025-ci il tarixli sərəncam imzalayıb.**

Sərəncamın preambula hissəsində qeyd olunub ki, Bəxtiyar Vahabzadə mübariz şəxsiyyəti və çoxşaxəli fəaliyyəti ilə XX əsrin ikinci yarısından etibarən Azərbaycan bədii-ictimai fikir tarixinə parlaq səhifələr yazmış qüdrətli simalardandır. Onun dərin poetik-fəlsəfi düşüncələrlə zəngin irsi daim mədəni-mənəvi dəyərlərə ehtiram, milli-azadlıq ideallarına bağlılıq və istiqlal məfkurəsinə sədaqət hissi aşılamışdır. Sənətkar ədəbi və elmi yaradıcılığını uzun illər pedaqoji fəaliyyəti ilə uğurla əlaqələndirərək bir neçə nəslin milli təfəkkürünün formalaşmasında müstəsna rol oynamışdır. Bəxtiyar Vahabzadə ictimai xadim kimi xalqın taleyüklü məsələlərinə münasibətdə həmişə əsl ziyalı mövqeyi nümayiş etdirmişdir.

Rəsmi sənəddə Mədəniyyət Nazirliyinə Elm və Təhsil Nazirliyi ilə birlikdə, Azərbaycan Yazıçılar Birliyinin təklifləri nəzərə alınmaqla, Bəxtiyar Vahabzadənin 100 illik yubileyinə dair tədbirlər planı hazırlayıb həyata keçirmək tapşırılıb.

Qeyd etmək fərəhlidir ki, türk ədəbiyyatının böyük nümayəndəsinin yubileyi ilə bağlı təkcə Azərbaycanda deyil, bütün Türk dünyasında çoxsaylı



tədbirlər keçirilir. Dünən TÜRKSOY-un Ankaradakı baş ofisində “Bəxtiyar Vahabzadənin Anım İli”nin açılışı münasibətilə təntənəli tədbir keçirilib. Bu barədə qərar hələ 2023-cü ilin oktyabrında TÜRKSOY-un Mədəniyyət Nazirləri Daimi Komitəsinin Şuşada keçirilən 40-cı iclasında qəbul edilib. Bu beynəlxalq qurum əvvəllər də unudulmaz şairin yaradıcılığına dair konfranslar təşkil edib, onun əsərlərinin xarici dillərə tərcüməsinə şərait yaradıb.

Xalq şairi, Əməkdar incəsənət xadimi, filologiya elmləri doktoru, professor Bəxtiyar Vahabzadə 1925-ci il avqustun 16-da Şəkidə anadan olub. O, xaricdə də ölkəmizi layiqincə təmsil edib, milli mədəniyyətin təbliği üçün səylərini əsirgəməyib. Xalq şairi bir sıra orden və medallarla, o cümlədən Azərbaycan Respublikasının ali dövlət mükafatı – “İstiqlal” ordeni ilə təltif edilib. Böyük qələm ustası 2009-cu il fevralın 13-də ömrünün 84-cü ilində dünyasını dəyişib.

Bəxtiyar Vahabzadə şeirlərinin birində yaşamaq istəyi haqqında deyirdi:

**Bir rəngi yox, göylərin min rəngini sevirəm,**
**Bir gülü yox, güllərin çələngini sevirəm.**
**Mən çıxmağa təpə yox, uca dağ istəyirəm,**
**Həyatı həyat kimi yaşamaq istəyirəm!**

İftixarla deyə bilərik ki, şair həm həyatı həyat kimi yaşayıb, həm də nəsillərinə bir nümunə olub.

Xalq şairinin yaradıcılığının müxtəlif aspektləri hər an alimlərin diqqət mərkəzindədir. Filologiya elmləri üzrə fəlsəfə doktoru, dosent Elnarə Qaragözovanın “Dilimizin təəssübü poeziya və elm tandemində” məqaləsi də bu qəbildəndir. Həmin məqaləni oxucularımıza təqdim edirik.

*XQ*